Türkiyə

# İstanbulda Aerokosmik Sənaye Sərgisi (SAHA EXPO 2024) keçirilir



**Avropanın ən böyük sənaye klasteri olan "SAHA İstanbul"un təşkil etdiyi SAHA EXPO Müdafiə, Aviasiya və Kosmos Sənayesi Sərgisi İstanbulun Sərgi Mərkəzində (İFM) keçirilir. SAHA EXPO sərgisində 120-dən çox ölkədən 1478 şirkət, 178 xarici satınalma heyəti, 25-i nazirlər səviyyəsində olmaqla 312 rəsmi nümayəndə heyəti iştirak edir.**

Sərgi "Müdafiə və təhlükəsizlik sahəsində dərin texnologiya inqilabının liderliyi", "Kosmik ekosisteminin inkişafı və beynəlxalq əməkdaşlıq imkanları", "Müdafiə sahəsində inkişaf edən texnologiyalar, süni intellekt və muxtariyyət", "Milli texnologiya hərəkəti, Müdafiə Sənayesi, Türkiyə Modeli", "Kiber Müharibə və Panellər" və "Müdafiə Sənayesində Sahibkarlıq, Risklər və Fürsətlər" sahələri üzrə keçiriləcək.

Sərgi çərçivəsində əməkdaşlıq müqavilələri imzalanacaq, B2B görüşləri, FPV tipli pilotsuz uçuş aparatı yarışları və təqdimatlar da təqdim olunacaq. Sərgi 25-26 oktyabr tarixlərində ictimaiyyətə açıq olacaq. Türk müdafiə sənayesində əldə edilən silah-sursatın kütləvi istehsal gücü və xətt quraşdırma qabiliyyəti ordularının ehtiyaclarını qarşılamaq istəyən ölkələrin diqqətini çəkib.

Burada təyyarə bombaları, ağır silah və sursat istehsalı layihələri, döyüş maşınları üçün hissələrin və alt sistemlərin istehsalı sahələrində məsuliyyəti üzərinə götürən "ASSAN" müdafiə qrupu, həyata keçirdiyi əməliyyatlar nəticəsində ortaya çıxan yeni məhsullarla "Anadolu Agentliyi"nin qlobal kommunikasiya tərəfdaşı kimi iştirak edir.

"ASSAN" müdafiə qrupu sərgidə bu sahələrdə həyata keçirdiyi işlər və etdiyi sərmayələrlə bağlı SAHA EXPO Beynəlxalq Müdafiədə ehtiyacı olan yerli və beynəlxalq qurumlar və platforma istehsalçıları ilə əməkdaşlıq görüşləri keçirəcək. Bununla bağlı açıqlama verən **"ASSAN" müdafiə qrupunun baş direktoru Gürcan Okumuş** sərgidə təxminən 750 kvadratmetrlik bir stend sahəsi qurduqlarını və bütün imkanlarını nümayiş etdirdiklərini söyləyib. Sərgidə MK seriyalı bombaların müxtəlif tipli gövdələrini, artilleriya və minaatan sursatlarını nümayiş etdirdiklərini ifadə edən G.Okumuş bəzi ehtiyat hissələri məhsullarını da güc qrupu sahəsinə daxil edəcəklərini bildirib. O deyib: "ASSAN qrup olaraq biz əsasən ixrac üzərində işləyən bir şirkətik. Daha yüksək rəqəmlərə çatmağı hədəfləyirik. Bu nöqtədə biznesin inkişafı səylərimiz sayəsində intensiv şəkildə davam edir".




Şirkətin ən güclü əzələsinin kütləvi istehsal olduğunu və bunu son illərdə müdafiə sənayesinə köçürdüklərini vurğulayan G.Okumuş ixrac tərəfinə üstünlük və kütləvi istehsal qabiliyyətinə dəstək verəcəklərini ifadə edib. MK seriyalı sursatları yüksək miqdarda istehsal edə bildiklərini vurğulayan direktor deyib ki, xaricdə, xüsusən də Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycanda satışlarımız davam edir. 10-dan çox ölkəyə satışımız var. Bu sahədəki investisiya planlarımıza artilleriya sursatları və quru döyüş sursatlarını da daxil etdik. Qısa müddətdə ildə 100 mindən çox qısa və uzun mənzilli 122 silah-sursat istehsal etməyi planlaşdırırıq. 2025-ci ildə isə 360 min ədət 155 silah-sursat istehsalı və doldurma tutumuna da çatmağı hədəfləyirik. Sursatın, eyni zamanda gövdəsində, partlayıcı, döyüş başlığı və hətta fünyesinin tamamilə hazır məhsul istehsalı da hədəflərimizdən biridir. Biz daha yüksək istehsal həcminə nail olmalıyıq. "ASSAN" qrup olaraq biz əsas təcrübəmizi daha yüksək səviyyəyə qaldırırıq və kütləvi istehsalda dünya səviyyəli şirkətə çevrilirik. Hazırkı investisiya planlarımız həmişə bu istiqamətdədir".






İnvestisiyaların bir hissəsini artıq işə saldıqlarını ifadə edən G.Okumuş MK serialında əhəmiyyətli bir səviyyəyə çatdıqlarını ifadə edib. O vurğulayıb ki, xüsusilə artilleriya sursatları, 122 MLRS, 122 minaatan və 155 millimetrlik sursata sərmayələrimizin tamamlanmasına 2025-ci ilin birinci rübündə başlanılacaq. Biz 2025-ci ilin birinci rübündə tam gücə çatacağımızı təxmin edirik. 2025-ci ilin sonuna kimi tam atəş, döyüş sursatı, partlayıcı maddələr, döyüş başlığı və fünye ilə ucdan-uca döyüş sursatını çatdıra biləcəyimiz üçün çalışırıq. Kütləvi istehsal gücü ilə yanaşı, xətt quraşdırma kimi dünyada nadir bir qabiliyyətə sahib olduqlarını qeyd edən direktor xaricdə də xətt quraşdırma təkliflərinin olduğunu bildirib. "Həm Avropanın, həm də Yaxın Şərqin müxtəlif ölkələri ilə danışıqlarımız var. Xəttin quraşdırılması ilə bağlı ilk imzamızı bu sahədə imzalayacağıq. Biz yaxşı olduğumuz sahədə özümüzü təkmilləşdirməyə qərarlıyıq. Bu nöqtədə işimiz davam edir və var gücümüzlə hədəflərimizə nail olacağıq", - deyə G.Okumuş vurğulayıb.



**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**